# AZƏRBAYCAN RESPUBLİKASININ QÜVVƏDƏ OLAN MÜLKİ PROSESSUAL MƏCƏLLƏSİNDƏ ƏMR İCRAATI İLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏR HAQQINDA

**M.O.ƏLİYEV**
*Bakı Dövlət Universiteti*

Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci il tarixindən qüvvəyə minmiş Mülki Prosessual Məcəlləsinin (bundan sonra MPM) 23-cü fəsli əmr icraatı institutuna həsr olunub. Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi üçün yeni olan əmr icraatı əslində qədim tarixi köklərə malikdir. Belə ki, mülki işlər üzrə sadələşdirlimiş məhkəmə icraatı hələ qədim Roma hüququna məlum idi. Roma hüququna görə cavabdehin susduğu və ya iddiaçının tələbi ilə razılaşdığı təqdirdə iş məhkəmənin qətnamə çıxarmasınadək davam etmirdi və pretor mübahisəli əmlakı borcludan icra qaydasında iddiaçının xeyrinə alırdı (7, s. 35).

Orta əsrlərin Avropa hüququ üçün də mülki işlər üzrə məhkəmə icraatının sadələşdirilmiş üsulları səciyyəvi idi. İtaliyanın ticarət şəhərləri orta əsrlərdə ticarət işləri, veksellər və digər mübahisəsiz sənədlər üzrə ödəmələrin icrası üçün qısaldılmış məhkəmə icraatının xüsusi formalarını inkişaf etdirmişdilər. Kapitalist münasibətlərinin inkişafı 19-cu yüzillikdə bir sıra Avropa ölkələrinin prosessual hüququnda əmr icraatına oxşar olan mübahisəsiz sənədlər üzrə icra institutlarının meydana çıxmasına səbəb oldu. Ərizəçinin birtərəfli qaydada xahişi əsasında cavabdeh çağırılmadan və izahatları dinlənilmədən məhkəmə əmrinin çıxarılmasına yol verilirdi (6, s. 358-359).

İngiltərənin Ali Məhkəməsinin Qaydalarında nəzərdə tutulan sadələşdirilmiş icraat qaydaları iddia icraatı çərçivəsində iddiaçının məhkəməni iddianın əsaslarının cavabdehin rədd etməsinin və mübahisə etməsinin mümkünsüzlüyünə inandırdığı təqdirdə tətbiq olunur. Tərəflər arasında işin faktiki və hüquqi halları barəsində mübahisə olmamalıdır (5, s. 156-163).

ABŞ-da mülki prosesin federal qaydalarının 56-cı maddəsinə görə sadələşdirilmiş icraat qaydasında məhkəmə qətnaməsi həm iddiaçının, həm də cavabdehin müraciətinə əsasən çıxarıla bilər. Federal məhkəmələr tərəflər arasında mübahisə olduqda patent haqqında işlərə sadələşdirilmiş qaydada baxmaqdan imtina edirlər.

İnkişaf etmiş xarici dövlətlərin mülki prosessual qanunvericiliyində nəzərdə tutulan əmr icraatı bəzi əlamətlərinə görə fərqlənsə də, əsas məqsədin mülki işlərə baxılması vaxtının mümkün qədər qısaldılmasından və prosedur qaydaların sadələşdirilməsindən ibarət olması aydın sezilir.

Əmr icraatı iddia, xüsusi iddia və xüsusi icraatdan fərqlənən bir sıra səciyyəvi cəhətlərə malikdir. Belə ki, əmr icraatı hər şeydən öncə yalnız ona xas olan və hər birinin müəyyən məqsədi olan bir neçə

mərhələdən ibarətdir. 1-ci mərhələni məhkəmə əmri haqqında ərizənin verilməsi adlandırmaq olar. Azərbaycan Respublikasının MPM-nin 277–279-cu maddələri əmr icraatının məhkəmə əmri haqqında ərizənin verilməsi mərhələsini tənzimləyir və ərizənin formasını, məzmununu, verilmə qaydasını, ödənilməli dövlət rüsumunun məbləğini, ərizəyə əlavə edilməli olan sənədlərin siyahısını, habelə ərizənin qəbul olunmasından imtinanın əsaslarını müəyyən edir.

2-ci və 3-cü mərhələləri müvafiq surətdə məhkəmə əmrinin verilməsindən imtina və ya məhkəmə əmrinin verilməsi və məhkəmə əmrinin ləğv edilməsi adlandırmaq mümkündür. Qeyd olunan mərhələlər MPM-nin 280–284-cü maddələri ilə tənzimlənir.

Fikrimizcə əmr icraatının sadalanan mərhələləri içərisində qanunverici nədənsə borclunun məhkəmə əmrinin verilməsi haqqında ərizənin məhkəmənin icraatına qəbul edilməsi barədə məlumatlandırılmasını nəzərdə tutmur. Ümumiyyətlə, bu mərhələnin əmr icraatının quruluşunda saxlanılması ilə bağlı mülki prosessual hüquq ədəbiyyatında müzakirələr gedir. Müəlliflərdən V.İ. Reşetnyaka görə məhkəmə borclunun kreditorun ərizəsində göstərilən tələblərin mahiyyəti üzrə mövqeyini nəzərə almadan məhkəmə əmri çıxarmaqda haqlıdır. Belə qayda kreditorun pozulmuş hüququnun müdafiəsini sürətləndirir və məhkəmə ilə borclu arasındakı yazışmaları qısaldır. Digər bir tərəfdən, əmr icraatında kreditorun tələblərinin həyata keçirilməsini təmin edəcək tədbirlərin məhkəmə tərəfindən tətbiq olunması nəzərdə tutulmadığından, əmr icraatının başlanması haqqında xəbərdar edilən borclu tələb olunan pul məbləğini və ya əmlakı gizlədə və ya özgəninkiləşdirə bilər (9, s.168-169).

Müəlliflərdən V.N.Arqunov isə əks mövqedən çıxış edərək, borclunun əmr icraatının başlanması barədə xəbərdar edilməməsini onun hüquqlarının, müdafiə imkanlarının məhdudlaşdırılmasına səbəb olacağını bildirir. Müəllifin fikrincə, belə qaydanın tətbiqi borclunun kiminsə hüququnu pozduğunu məhkəmə icraçısı artıq qanuni qüvvəyə minmiş məhkəmə əmri əsasında əmlakı və ya pulu ondan almağa gəldikdə xəbər tutması ilə nəticələnəcək. Hətta «istənilən rabitə vasitələrinin» tətbiqi borclunun məhkəmə əmrinin çıxarılması haqqında vaxtında xəbərdar edilməsinə və əmrin surətini aldıqdan 10 gün ərzində etiraz edə biləcəyinə təminat vermir (2, s. 18).

Azərbaycan Respublikasının MPM-nin 23-cü fəsli borclunun məhkəmə əmrinin verilməsi haqqında ərizənin məhkəmənin icraatına qəbul olunması barədə xəbərdar edilməsini nəzərdə tutmur. Lakin MPM-nin 278.2.3-cü maddəsində borclu haqqında məlumatların, o cümlədən borclunun iş yeri, yaşayış və ya olduğu yerin göstərilməsi nəzərdə tutulur ki, bunun da məhkəmə əmri çıxarıldıqda onun surətinin borcluya göndərilməsinə xidmət etdiyini söyləmək olar. MPM-nin 23-cü fəslinin normalarının hazırkı vəziyyətindən belə çıxır ki, borclu xəbərdar edilmədən və ümumiyyətlə onun məlumatı olmadan borclunun tərəf olduğu mülki məhkəmə icraatı başlanır. MPM-nin iş üzrə məhkəmə baxışının prinsiplərini müəyyən edən 14.1-ci maddəsinə görə məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

Fikrimizcə, MPM-nin 23-cü fəslinin hazırkı vəziyyətində MPM-nin 14.1-ci maddəsində təsbit olunmuş prinsiplərə riayət olunması mümkün deyil. Belə vəziyyəti aradan qaldırmaq üçün MPM-nin 23-cü fəslinə borclunun məhkəmə tərəfindən ən geci 3 gün müddətində məhkəmə əmrinin verilməsi haqqında ərizənin məhkəmənin icraatına qəbul olunması barədə xəbərdar edilməsini müəyyən edən normanın daxil edilməsini təklif edirik.

Əmr icraatının qüvvədə olan mülki prosessual qanunvericilikdə müstəqil hüquq institutu kimi nəzərdə tutulması mülki məhkəmə icraatının sadələşdirilməsi zərurətindən irəli gəlir. 20-ci yüzilliyin doxsanıncı illərindən etibarən respublikamızın məhkəmələrinə daxil olan mübahisəli maddi hüquq münasibətlərindən doğan mülki işlərin sayı əvvəlki dövrlərlə müqayisədə bir neçə dəfə artmışdır. Belə vəziyyət həm ictimai-siyasi, həm də bazar iqtisadiyyatı münasibətlərinə keçidlə əlaqədar baş verən iqtisadi böhranlarla, xüsusi hüquq münasibətlərinin inkişaf qanunauyğunluqları ilə izah olunur.

Əmr icraatını mülki məhkəmə icraatının digər növlərindən fərqləndirən cəhətlərdən biri də tərəflərin kreditor və borclu adlandırılmasıdır. Azərbaycan Respublikasının MPM-nin 23-cü fəslində istifadə edilmiş «kreditor» və «borclu» anlayışları mübahisənin yarandığı maddi-hüquq münasibətini və bu münasibətdəki səlahiyyətli şəxsləri dəqiq təsəvvür etməyə imkan verir.

Mülki prosessual qanunvericilikdə və mülki prosessual hüquq ədəbiyyatında əmr icraatında mübahisənin olmaması qeyd olunur. Mübahisənin yaranması üçün borclunun kreditorun iradəsinə zidd olan fəal hərəkətlər etməsi tələb olunmur. Burada borclunun öz öhdəliklərinin icrasından boyun qaçırması kifayətdir (3, s. 10.).

Kreditor ilə borclu arasındakı fikir ayrılığı aşağıdakı 3 formadan birində təzahür edə bilər:1) borclu kreditorun borcunu qaytarmaqdan açıq-aşkar imtina edir; 2) kreditorun tələblərini bilən borclu susur, lakin borcu qaytarmır; 3) borclu kreditorun tələbləri ilə razılaşır, öhdəliyini etiraf edir, lakin müxtəlif səbəblərdən bu öhdəliyi yerinə yetirmir.

Sadalanan hər 3 halda tərəflərin hüquqi inamları üst-üstə düşmür.

İddia icraatı kimi, əmr icraatı da maddi hüquq münasibətinin tərəfləri arasında yaranmış hüquqi mübahisəni həll etmək məqsədini daşıyır. Lakin iddia icraatından fərqli olaraq, əmr maddi hüquq münasibətlərinin iştirakçılarının subyektiv hüquqlarının müdafiəsini sürətləndirmək və prosessual qənaət məqsədilə hüquqi mübahisəni sadələşdirilmiş formada həll etməyə xidmət edir. Əmr icraatı məhkəmə baxışı keçirilmədən aparılan sadələşdirilmiş icraat olduğundan və bilavasitə bu icraat çərçivəsində mübahisə olmadığından mübahisəsiz hesab oluna bilər (8, s. 68).

Azərbaycan Respublikasının MPM-nin 23-cü fəslinin normalarını ümumiləşdirərək əmr icraatının aşağıdakı səciyyəvi əlamətlərini qeyd edə bilərik: 1) əmr icraatı birinci instansiya məhkəmələrində həyata keçirilən, iddia icraatı ilə müqayisədə sadələşdirilmiş, kreditorun məhkəmə əmrinin verilməsi haqqında ərizəsi ilə başlayan mülki işlər üzrə məhkəmə icraatıdır; 2) əmr icraatı müəyyən pul məbləğinin ödənilməsi və ya əmlakın tələb edilməsi üzrə təşəkkül tapan bir sıra hüquq münasibətlərindən yaranan hüquq haqqında mübahisələrin sadələşdirilmiş qaydada həll edilməsinə xidmət edir; 3) əmr icraatı etibarlı sənədlərlə təsdiq edilən öhdəliklərin məcburi icrası mexanizmini təmin etməklə şəxslərin hüquq və qanuni mənafelərini müdafiə etmək

məqsədini daşıyır; 4) əmr icraatında tərəflər iddiaçı və cavabdeh deyil, kreditor və borclu adlandırılır və onların arasında məhkəmənin həll etməli olduğu maddi-hüquqi mübahisə mövcud olur; 5) əmr icraatı tərəflər çağırılmadan, onların izahatları dinlənilmədən və məhkəmə baxışı keçirilmədən aparılır, habelə prosessual hərəkətlərin protokollaşdırılması baş vermir; 6) əmr icraatının iddia icraatına alternativ olduğunu cəsarətlə söyləmək olar. Belə ki, mübahisəyə iddia, yoxsa əmr icraatı qaydasında baxılmasını iddiaçı öz mülahizəsinə görə sərbəst seçmək hüququna malikdir.

Azərbaycan Respublikası MPM-nin 279.3-cü maddəsinə əsasən məhkəmə əmrinin verilməsi haqqında ərizənin qəbul edilməsindən imtina haqqında qərardaddan şikayət verilə bilməz. Mülki prosessual hüquq ədəbiyyatında sözü gedən qərardaddan şikayət verilməsi imkanının nəzərdə tutulmaması bu qərardadın mülki işin sonrakı hərəkətinə mane olmaması ilə izah olunur (4, s. 21). Lakin bu fikirlə razılaşmaq çətindir. Belə ki, məhkəmə əmrinin verilməsi haqqında ərizənin qəbul edilməsindən əsassız imtina olunması halları da mümkündür və belə qərardad işin sonrakı hərəkətinə mane olacaqdır. MPM-nin 267.1-ci maddəsi məhkəmə tərəfindən ayrıca akt şəklində qəbul edilmiş qərardaddan MPM-də göstərilmiş hallarda şikayət verilməsini nəzərdə tutur. MPM-nin 395-ci maddəsi isə işdə iştirak edən şəxslərin 1-ci instansiya məhkəməsinin qərardadlarından qətnamədən ayrılıqda 2 halda şikayət verilməsinin mümkünlüyünü müəyyən edir: 1) MPM-də göstərilən hallarda; 2) məhkəmənin qərardadı işin sonrakı hərəkətinə mane olduqda.

Fikrimizcə əmr icraatının əlyetənliyini artırmaq məqsədilə MPM-nin 279-cu maddəsində məhkəmə əmrinin verilməsi haqqında ərizənin qəbul edilməsindən imtina haqda qərardaddan şikayət verilməsini müəyyən edən norma nəzərdə tutulması məqsədəuyğundur. Düşünmək olar ki, sözü gedən qərardaddan şikayət verilə bilməməsi əmr icraatının özünəməxsusluğu ilə izah olunur. Lakin bu zaman məhkəmə hüquq və qanuni mənafeyinin müdafiəsi üçün müraciət edən şəxsin əvəzinə məhkəmə icraatının növünü seçir. Bu isə maraqlı şəxsin pozulmuş hüquq və qanuni mənafeyinin müdafiə üsulunu və qaydasını öz mülahizəsinə görə müstəqil seçə bilməsini müəyyən edən, mülki prosessual hüququn sahəvi prinsipi olan dispozitivlik prinsipinin pozulması deməkdir.

MPM-nin 23-cü fəslində məhkəmə əmrinin verilməsi haqqında ərizənin məhkəmənin icraatına qəbul edilməsinin rəsmiləşdirilməsi qaydasını müəyyən edən norma nəzərdə tutulmayıb. MPM-nin 280-ci maddəsinə görə məhkəmə əmri «irəli sürülmüş tələb» məhkəməyə daxil olan gündən 3 gün ərzində çıxarılmalıdır. Fikrimizcə, burada qanunverici bir qədər terminoloji uyğunsuzluğa yol vermişdir. Belə ki, MPM-nin 277–279-cu maddələri məhkəməyə yazılı formada ərizənin verilməsini müəyyən edir. Konkret tələb, yaxud tələblər isə bu ərizədə əks olunmalıdır. Digər bir tərəfdən, ərizənin məhkəməyə daxil olması hələ onun məhkəmənin icraatına qəbul olunması demək deyil. Sözü gedən ərizə yalnız MPM-nin 278-ci və 279-cu maddələrinin tələblərinə cavab verdiyi təqdirdə məhkəmənin icraatına qəbul edilir. Fikrimizcə bu prosessual hərəkət müvafiq qərardadın çıxarılması ilə rəsmiləşdirilməli və məhkəmə əmrinin çıxarılması üçün müəyyən olunmuş 3 günlük müddət bu qərardadın çıxarıldığı gündən hesablanmalıdır. Əks təqdirdə əmr icraatı qaydasında baxılmalı olan işlərin süründürməçilik halları və

əmr icraatı institutu haqqında mənfi ictimai rəyin formalaşması qaçılmazdır. Qeyd olunanları nəzərə alaraq, MPM-nin 279.3-cü maddəsinə aşağıdakı müddəanın əlavə edilməsini təklif edirik: «Məhkəmə əmrinin verilməsi haqqında ərizə məhkəmənin icraatına qəbul edildikdə bu barədə ərizənin məhkəməyə daxil olduğu gündən 3 gün ərzində müvafiq qərardad çıxarılır».

MPM-nin 280-ci maddəsinin isə aşağıdakı redaksiyada verilməsini məqsədəuyğun sayırıq: «Məhkəmə əmri ərizənin məhkəmənin icraatına qəbul edilməsi haqqında qərardad çıxarıldığı gündən 3 gün ərzində məhkəmə baxışı keçirilmədən və izahatları dinlənilmək üçün tərəflər çağırılmadan çıxarılır».

MPM-nin 23-cü fəslində yol verilmiş digər bir terminoloji uyğunsuzluq MPM-nin 281.3-cü və 282-ci maddələrini müqayisə etdikdə ortaya çıxır. Belə ki, MPM-nin 281.3-cü maddəsi məhkəmə əmrinin surətinin borcluya göndərilməsini müəyyən etdiyi halda, MPM-nin 282-ci maddəsində borclunun məhkəmə əmrini (burada nədənsə əmrin surəti unudulub) aldığı gündən 10 gün müddətində verilmiş tələbə və ya onun hissəsinə qarşı əmri vermiş məhkəməni yazılı xəbərdar etməklə etiraz edə bilməsi nəzərdə tutulur.

MPM-nin 283-cü maddəsinə görə borclunun etirazı vaxtında verilmişsə, hakim əmri ləğv edir və iddia icraatına keçir. MPM-nin 23-cü fəslində borclunun etirazının motivlərinin göstərilməsi haqqında heç bir söz deyilmir. MPM-nin 283-cü maddəsinin ifadə etdiyi mənaya görə hakim əmri dərhal ləğv edir və iddia icraatına keçir. Fikrimizcə, burada borclunun məhkəmə əmrinin icrasını çətinləşdirmək və hətta mümkünsüz etmək cəhdlərinin ola bilməsi qanunverici tərəfindən nəzərə alınmayıb. Halbuki məhkəmə təcrübəsində belə hallara tez-tez rast gəlinir. Borclunun heç bir əsas göstərmədən məhkəmə əmrinə etiraz etməsi və nəticədə iddia icraatına keçilməsi qaydası kreditorun sadələşdirilmiş prosedur qaydalar çərçivəsində iddia icraatı ilə müqayisədə xeyli qısa müddətdə pozulmuş hüquq və qanuni mənafeyinin müdafiəsinə nail olma hüququnu həyata keçirməsinə imkan vermir, kreditor üçün lüzumsuz vaxt itgisinə və maddi məsrəflərə səbəb olur. Hesab edirik ki, belə vəziyyət MPM-nin mülki işlər üzrə məhkəmə icraatının hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilməsini müəyyən edən 8-ci maddəsinə ziddir. Bu baxımdan MPM-nin 283-cü maddəsinə borclunun etirazına, məhkəməyə daxil olduqdan sonra 3 gün ərzində baxılmasını və əsassız olarsa, rədd edilməsini müəyyən edən müddəanın daxil edilməsini zəruri sayırıq. Fikrimizcə borclunun məhkəmə əmrinin icrasını mümkünsüz etmək məqsədilə əsassız etiraz verməsinin qarşısını almağa xidmət edəcək digər bir vasitə etirazın qəbul olunması üçün müəyyən məbləğdə dövlət rüsumunun ödənilməsini tətbiq etməkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (10 may 2007-ci ilədək olan dəyişiklik və əlavələrlə). Bakı: Qanun, 2007.
2. Аргунов В.Н. Судебный приказ и приказное производство // Законодательство. 1998. №2.
3. Воложанин В.П. Несудебные формы разрешения гражданско-правовых споров. Свердловск: 1974.
4. Диордиева О.Н. Судебный приказ как форма защиты в гражданском процессе // Арбитражный и гражданский процесс. 2003. № 6.

5. Кейлин А.Д. Судоустройство и гражданский процесс капиталистических государств в 3-х частях. Ч.2. М.: 1958.
6. Малышев К.И. Курс гражданского судопроизводства в 3-х томах. Т.3. СПб. 1879.
7. Новицкий И.Б. Римское право. М.: 1997.
8. Черемин М.А. Приказное производство в российском гражданском процессе. М.: 2001.
9. Решетняк В.И., Черных И.И. Заочное производство и судебный приказ в гражданском процессе. М.: 1997.

## О НЕКОТОРЫХ ВОПРОСАХ ПРИКАЗНОГО ПРОИЗВОДСТВА В ДЕЙСТВУЮЩЕМ ГРАЖДАНСКО-ПРОЦЕССУАЛЬНОМ КОДЕКСЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**М.О.АЛИЕВ**

**РЕЗЮМЕ**

В статье рассмотрены вопросы, имеющие научное и практическое значение, связанные с институтом приказного производства. На основе анализа закономерностей развития национального законодательства даются рекомендации по совершенствованию главы 23-ей действующего Гражданско-процессуального кодекса Азербайджанской Республики.

## ABOUT SOME QUESTIONS ORDER PROCEDURE IN ACTING CIVIL PROCEDURE CODE OF AZERBAIJANI REPUBLIC

**M.O.ALIYEV**

**SUMMARY**

In article are analysed some questions, having scientific and practical importance connected with institute "mandative procedure" and are advanced definite natural offers for the purpose of improvements chapter twenty third existing Civil procedure code of the Azerbaijani Republic.